______________ **RAYON MƏHKƏMƏSİNƏ**

**İddiaçı:** _____________ (adı,soyadı,ata adı)
**Ünvan**: ______________________________
**Əlaqə telefonu:** ______________________

**Cavabdeh:** __________ (adi,soyadı.ata adı)
**Ünvan**: ____________________________

# İDDİA ƏRİZƏSİ

*(nikahın pozulması tələbinə dair)*

**İşin faktiki halları:**

Mən,___________(adı,soyadı,ata adı) cavabdeh __________ (adı,soyadı,ata adı) ilə ________ -cı il tarixdə __________ (Nikahın qeydə alındığı dövlət orqanının tam adı) ___ nömrəli akt qeydi ilə qeydiyyata alınmaqla nikah bağlamışam.

Cavabdehlə olan nikahdan _______ -ci il təvəllüdlü(Övladın adı.soyadı,ata adı) və xx.xx.xxxx-cu il təvəllüdlü ________ (Övladın adı,soyadı,ata adı) övladlarımız (övladımız) var.

Bildirirəm ki, hazırda cavabdehlə ailə-nikah münasibətlərimizi yekunlaşdırmaq qərarına gəlmişik və bu məqsədlə məhkəməyə müraciət edirik.

**Hüquqi əsaslar:**

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 2.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ailə Məcəlləsi (bundan sonra — bu Məcəllə) nikahın bağlanması, nikaha xitam verilməsi və onun etibarsız sayılması qaydaları və şərtlərini müəyyən edir.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 19.1-ci maddəsinə əsasən bu Məcəllənin 17.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda və ya ər (arvad) nikahın pozulmasına razı olmadıqda nikah məhkəmə qaydasında pozulur.

Həmin Məcəllənin 20.1-ci maddəsinə əsasən ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü məhkəmə tərəfindən müəyyən edildikdə, nikah məhkəmə qaydasında pozulur.

Həmin Məcəllənin 21.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan ümumi uşaqları olan ər-arvadın nikahın pozulmasına qarşılıqlı razılığı olduqda, eləcə də bu Məcəllənin 19.2-ci maddəsində göstərilən hallarda nikah onun pozulma səbəbləri məhkəmə qaydasında araşdırılmadan pozulur.

Həmin Məcəllənin 21.3-cü maddəsinə əsasən nikahın məhkəmə qaydasında pozulması ər-arvadın bu barədə ərizə verdikləri gündən 1 aydan tez olmayaraq həyata keçirilir.

Yuxarıda sadalanan nikahın pozulmasına dair ailə hüquq münasibətlərinə dair maddi hüquq normaları cavabdehlə aramızda olan nikahın pozulması üçün qanunvericiliklə nəzərdə tutulmuş hüquqi əsasları yaradır. Göstərilənlərə əsasən hesab edirik ki, tərəflər arasında bağlanılmış nikah məhkəmə qaydasında pozulmalıdır.

Hesab edirəm ki, yetkinlik yaşına çatmayan övladlarımız - __________ -ci il təvəllüdlü __________ (adı,soyadı,ata adı) və ________ _-cu il təvəllüdlü __________ (adı,soyadı,ata adı) mənim yanımda qalmalıdır. Buna görə də bu məsələ Ailə Məcəlləsinin 22.1-ci maddəsinə əsasən məhkəmə tərəfindən həll edilməlidir.

Yuxarıda göstərilən faktiki və hüquqi əsaslara istinad edərək və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 149-150-ci maddələrinin tələblərini rəhbər tutaraq məhkəmədən

**XAHİŞ EDİRƏM:**

- Mən, __________ (adı,soyadı,ata adı) ilə cavabdeh __________ (adı,soyadı,ata adı) arasında _________ -cü il tarixdə __________ (nikahın qeydiyyata alındığı dövlət orqanının tam adı) ___ nömrəli akt qeydi ilə qeydiyyata alınmaqla bağlanılmış nikahın pozulması haqqında qətnamə qəbul edəsiniz;
- Yetkinlik yaşına çatmayan uşaqlarımız _______ -ci il təvəllüdlü __________ (adı,soyadı,ata adı) və ________ -cu il təvəllüdlü __________ (adı,soyadı,ata adı) mənim yanımda saxlanılması barədə qətnamə qəbul edəsiniz.

**İddia ərizəsinə əlavə olunan sənədlər:**

İddia ərizəsinin surəti – 1 (bir) nüsxədə;
Mediasiya arayışı;
Nikah haqqında şəhadətnamə;
Uşaqların doğum haqqında şəhadətnamələrinin surətləri;
Dövlət rüsumunun ödənilməsinə dair qəbz;
Mənim və cavabdehin şəxsiyyət vəsiqəsinin surətləri.

***İmza :***

**Tarix:**